UOT 555 M 353 X

**N. R. MƏMMƏDOVA, Ş. F. RZAYEVA**

**Heydər Əliyev adına Azəbaycan Ali Hərbi Məktəbi**
**E-mail: nigush@mail.ru**

# XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ SÖZ EHTİYATININ YADDA QALMASINDA İNTERAKTİV OYUNLARIN ROLU

Məqalədə xarici dilin tədrisində interaktiv oyunların əhəmiyyəti, leksikanın öyrənilməsində geniş söz ehtiyatına maliklik, pedфqoji təcrübədən oyunların ingilis dili tədrisində tətbiqinin tələbələrin intelektual inkşafına təsiri araşdırılmışdır.

**Açar sözlər:** Əlaqə, dinləmə, təhsil strategiyası, söz ehtiyatı, orıjınallıq, məntiqi təfəkkür, şəxsi potensial, aktiv lüğət, çox mənalı sözlər, omonimlər, leksiki oyunlar, "Jepardi" oyunu.

Beynəlxalq əlaqələrin inkşafı ilə ölkələr arasında iqtisadi əlaqələrin artması ingilis dili mütəxəssislərinə tələabatı artırır. Buna görə də, əsas məqsəd dilin şifahi və yazılı formada mənimsənilməsidir. Bu tədris metodlarının ilk mərhələsində özünü göstərir.

Leksika hər bir dilin əsas hissəsidir. Leksikanın dili öyrənməkdə mühüm rolu var. Kifayət gədər söz ehtiyatına malik olmayanlar bir sıra çətinliklərlə üzləşirlər. Leksikanın mənimsənilməsi ikinci xarici dil öyrənən tələbələr üçün effektiv vasitədir. Çünki məhdud söz ehtiyatı xarici dildə danışmağı çətinləşdirir. İngilis dilinin tədrisində dörd əsas bacarıq mühüm yer tutur: nitq, dinləmə, yazı və oxu . Öz növbəsində bu bacarıqlar produktiv və reseptiv bacarıqlara bölünürlər. Produktiv termini yazı və nitqə, reseptiv termini isə dinləmə və oxuya aiddir [1,2].

D. Riçard öz məqaləsində yazır ki, leksika dil bacarıqlarının əsas komponentidir. Tələbələrin oxu, yazı, dinləmə və danışıq bacarığı bundan asılıdır. Kifayət qədər söz ehtiyatı olmayan tələbələr, potensiallarının çox olmasına baxmayaraq az nəticə əldə edirlər və onlar bəzi vəziyyətlərdə, dil daşıyıcıları ilə söhbət zamanı, televiziya verilişlərini xarici dildə izlədikdə məyus olub, həvəsdən düşürlər [3, s.255].

Nitqin səviyyəsi leksikanın nə dərəcədə mənimsənilməsinin göstəricisidir. Məsələn, Devid Nyunan təstiq edir ki, uyğun söz ehtiyatına malik olmaq xarici dil öyrənən tələbələr üçün çox vacibdir. Kifayət qədər söz ehtiyatı olmayan tələbələr dildən istifadə edib əlaqə qura bilmirlər. Göstərilən faktorlara görə dilin leksikasının öyrənilməsi bu tələbələr üçün əsasdır, xüsusilə də dili ilk başlanğıc mərhələdə öyrənənlər üçün.

Hal-hazırda ingilis dili müxtəlif millətlər arasında ünsiyyət vasitəsinə çevrilib. Bəzi ölkələrdə hətta bu dil dövlət dili statusu almışdır. Məhz buna görə də bizim dövrümüzdə İngilis dilinin ikinci xarici dil kimi öyrənilməsi xüsusi aktuallığa malikdir. Dilin mənimsənilməsi və sözlərin mənasını anlaması bəzən tələbələr üçün çətin olur. Bundan əlavə, onlar şəxsi, əşyaları və hadisələri təsvir etmək üçün uyğun söz tapmaqda da çətinliklərlə üzləşirlər. Çox zaman isə eyni sözlərin müxtəlif konteksdə düzgün işlənməməsi nitqdə kobud səhvə gətirib çıxarır. Bu səbəbdən də, ilkin mərhələdə ingilis dili tədris edən müəllimlərin vəzifəsi leksikanın öyrənilməsində ən effektiv metodları tapmaq və bu metodları ənənəvi metodlardan fərqləndirmək olmalıdır. Dil materialının əhatəliliyi ilə onun mənimsənilməsi müəllimin əsas məqsədi olmalıdır. Keçirilən material tələbələrdə maraq oyatmalı, öz orijinallığı ilə onları cəlb etməlidir. Bunlara həmişə nail olmaq olmur. Məhz buna görə də müəllim təlim zamanı xüsusi metod və üsulları tətbiq edir. Bu üsulların yadda qalması heç də həmişə effektli olmur, çünki bu üsullar tələbələrə söz ehtiyatını artırmağa stimul vermir [2,3].





Öz növbəsində, bu problemləri həll etmək çox vacibdir. Elmi ədəbiyyatdan, pedaqoji təcrübə və tətqiqatlardan belə aydın olur ki, ingilis dilinin başlanğıc mərhələsində oyunların tətbiqi tələbələrin intellektual inkişafına təsir edir. Oyunlar maraqlı olduğu üçün, dilin mənimsənilməsi asan olur. Oyunların müasir tədrisdə tətbiqi çox mühümdür. Tələbələrin anlamasını aktivləşdirmək məqsədilə interaktiv oyunlar tədris vasitəsinə cevrilib və onlara dilin öyrənilməsinə stimul verir.

Jil Hardvildin fikirlərinə görə, ingilis dili proqramlarına oyunların daxil olunması bacarıq və vərdişlərin formalaşmasına kömək edir [4, s. 6-10].

Oyunlar tələbələri dil öyrənmək prosesini yaradıcı qəbul etməyə məcbur edir. Yaradıcılıq isə işin keyfiyyətli və yüksək səviyyəli görülməsini tələb edir. Oyunların əhəmiyyətinin biri də odur ki, onlar tələbələrdə bərabərlik hissi və tapşırığın mürəkkəbliyini hiss etmək imkanı yaradır. Oyunların tətbiqi ilə müəllim proses zamanı zəif tələbələri də tədrisə cəlb edə bilir. Oyunlar həm də utancaq tələbələrdə dil manеələrini aradan qaldırmağa kömək edir. Oyunların tətbiqi tələbələrin individual potensialını, onların müsbət keyfiyyətlərini, sərbəstliyini, əməkdaşlığını, təşəbbüskarlığını açmaqda kömək edir. İngilis dilinin tədrisində oyunların tətbiqi aşağıdakı funksiyalardan ibarətdir:

1. Öyrədici; 2. Tərbiyəvi; 3. Əyləncəli; 4. Kommunikativ; 5. Psixoloji;
6. İnkişaf etdirici.

İngilis dilinin öyrənilməsində yeni sözün yadda qalması əsas problemlərdən biridir. Buna görə də oyunların tətbiqi bu problemi aradan qaldırır, tələbələrə söz ehtiyatını artırmağa, əzbərçilikdən qurtarmağa kömək edir. Leksikanın öyrədilməsi aşağıdakı məsələləri həll etməlidir:

- geniş aktiv söz ehtiyatı yaratmaq;
- yeni sözləri yaddaşda möhkəmlətmək;
- nitqdə söz ehtiyatından düzgün istifadə etmək.

Leksik materialın möhkəmlənməsi, eyni zamanda leksik tapşırıqların və ya oyunların daima yerinə yetirilməsi ilə mümkündür. Tapşırıqların oyunlarla yerinə yetirilməsi aşağıdakı məsələlərin həllinə kömək edir:

- yaxşı əhval-ruhiyyəli mühitin yaranmasına;
- tələbələrin diqqət və yaddaşının inkişafına.

İndiyə qədər, grammatika və fonetika leksika ilə bərabər qaydada öyrədilib. Müasir metodikada leksika daha çox əhəmiyyət kəsb edir. Kifayət qədər söz ehtiyatının olması, fikrin səlis izah olunması nitqdə çox mühümdür. Leksikanın öyrənilməsində müəyyən çətinliklər də meydana çıxır. Çoxmənalılıq, omonimlər, frazeoloji birləşmələr, latın və fransız dillərindən alınma sözlər ingilis dilinin səciyyəvi xüsusiyyətləridir. Buna görə də, ingilis dili dərsində oyunların tətbiqi dərsi yaradıcı və effektiv edir. Leksik oyunlar sadə, canlı və maraqlı olmalıdır. Oyunlar tədris prosesini bir qədər yüngülləşdirir, həmçinin, leksik oyunlar dərsin bütün mərhələrində tətbiq oluna bilər. Müəllim oyunların təşkilində əsas fiqurdur. O, oyunun nəticəsinə əmin olmalıdır. Dərs prosesində müəllim bu tələbləri nəzərə almalıdır:

- öyrənilən materialın tələbələrin yaddaş həddinə uyğun olması;
- bütün tələbələrin oyuna cəlb olunması;
- rahat şəraitin olması;
- təlimat və tələblərin hamıya aydın olunması;
- əyani vəsaitlər;
- səhvlərin düzəlişinə hörmətlə yanaşma.

Oyunların təşkilində frontal və qrup işlərinin tətbiqi mühüm əhəmiyyət kəsb edir. Məhz buna görə də qrup işi tələbələrin ən sevimli üsuludur. Çünki qrup işi onlara motivasiya verir, oyuna cəlb edir və dərsi daha maraqlı edir. Müəllim özü oyunun formasını tətbiq edir:

- tələbələrin hazırlıq səviyyəsinə uyğun olaraq;
- oyunun məqsədinə görə;
- oyuna daxil olunmuş leksik vahidlərə görə [5, s. 22].

Məşhur leksik oyunların arasında interaktiv multimedia viktorinasını təmsil edən "Jeopardi " oyununu xüsusilə qeyd etmək lazımdır. Bu oyunda iştirakçılar komandalara bölünərək suallara cavab verirlər. Sualların çətinliyindən asılı olaraq bal toplayırlar. Müasir müəllimlər "Jeopardi" oyununu leksik vahidin möhkəmlənməsi, tələbələrin oyunda yüksək bal qazanması və motivasiya olunması üçün effektiv metod kimi istifadə edirlər. Oyunun sadə qaydaları, multimedia

vasitələrindən istifadəsi, leksik materialın mənimsənilməsini asan və maraqlı edir. Bu oyun tələbələri intellektual səviyyələninin inkişafına yönəldir [4].

## NƏTİCƏ

Oyunların xarici dillərin oyrənməsində mühüm əhəmiyyəti vardır. Məhz ona görə də oyunların, tərəf müqavilini başa düşməkdə, onlarla əlaqə qurmaqda, standart olmayan vəziyyətlərdə həll yollarının tapmaqda rolu mühümdür.

## ƏDƏBİYYAT

1. Harmer, Jeremy The practice of English language Teaching / Jeremy Harmer. - London: UK Pearson, fourth edition, - 2010. - p. 442.

2. Nunan, David Language Teaching Methodology / David Nunan. - London: UK Prentice Hall İnternational, - 1991. - p. 626.

3. Richard, Jack C. Methodology in Language Teaching / Jack C Richard. - Cambridge: USA, Cambridge University Press, - 2002. - p. 415.

4. Hadfield, Jill Intermediate Communication Games / Jill Hadfield. - England, - London: Wesley Longman, Edinburg Gate, - 1990. - p. 129.

5. Mardhaditya, Muhammad Ado Rizgi The Effectiveness of Jeopardy Game in Teaching / Muhammad, Ado Rizgi Mardhaditya. // Vocabulary in Seventh Grade Students . Presented to State Institute of Islamic Studies - 2017/2018 - p. 62.

## SUMMARY

**N. R. MAMMADOVA, Sh. F. RZAYEVA**
**Azerbaijan Higher Military School named after Heydar Aliyev**
**E-mail: nigush@mail.ru**

## THE ROLE OF INTERACTIVE GAMES IN MEMORY OF WORD VOCABULARY IN TEACHING FOREIGN LANGUAGES

The article examines the importance of interactive games in foreign language teaching, having wide vocabulary, the impact of pedagogical experience on the intellectual development of students in the application of games in English language teaching.

**Key-words:** Communication, listening skills, education strategy, authenticity, word stock , logical thinking, personal potential, active vocabulary, polycemantic words, homonyms, lexical games, “Jeopardy” Game.

## РЕЗЮМЕ

**МАММАДОВА Н. Р., Ш. Ф. РЗАЕВА**
**Азербайджанское высшее военное училище имени Гейдара Алиева**
**Электронное письмо: nigush@mail.ru**

## РОЛЬ ИНТЕРАКТИВНЫХ ИГР В ЗАПОМИНАНИИ СЛОВАРНОГО ЗАПАСА ПРИ ОБУЧЕНИИ ИНОСТРАННЫМ ЯЗЫКАМ

В статье исследуется важность интерактивных игр в обучении иностранному языку, широкий словарный запас при изучении лексики, влияние педагогического опыта на интеллектуальное развитие учащихся при применении игр в обучении английскому языку.

**Ключевые слова:** Коммуникация,. аудирование, стратегия обучения, аутентичность, словарный запас, мыслительная деятельность, личностный потенциал, активный словарь, многозначность, омонимия, лексические игры, игра “Jeopardy “.

*Məqalə redaksiyaya daxil olmuşdur: 24.06.21*